## Aybeniz Garagile Qafarlı

### Ətəyindən Tök Daşı

Bircə əlçim buludam
Bircə qurtum göz yaşı.
Daha ağlatma, nolar,
Ətəyindən tök daşı.

Mənə qənim kəsilib
Qayçılama ömrümü.
Dəli-dolu şimşək tək
Qamçılama ömrümü.

Bir udumluq havanı
Qoy udum bu dünyada.
Göz yaşımla üzümü
Vallah yudum dünyada.

Gözlərimdən nəm çəkib
Mamırlayıb qismətim.
Taleyimə qısılıb
Sənə olan  həsrətim.

Səndən umacağım yox
Səbrim yaman daralıb.
Yenə bağrımın başı
Alovlanıb qor alıb.

Bircə əlçim buludam
Bircə qurtum göz yaşı.
Daha ağlatma nolar
Ətəyindən tök daşı.